Action funded by the European Union

EU4Environment
Armenia, Azerbaijan, Belarus, Georgia, Republic of Moldova, Ukraine

# "EU4ENVIRONMENT" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ÖLKƏLƏR ARASINDA VİRTUAL KONSULTASİYALAR

## Azərbaycan

**4 iyun 2020-ci il cümə axşamı**

Başlama vaxtı: Brüssel-Paris vaxtı ilə 14:00 - Bakı vaxtı ilə 16:00
Sonlanma tarixi: Brüssel-Paris vaxtı ilə 15:30 - Bakı vaxtı ilə 17:30

Texniki avadanlıqlar: veb əsaslı videokonfrans proqramı (Zoom)
Dil: İngilis-Azərbaycan dilləri (sinxron tərcümə)

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | WORLD BANK GROUP

## *Giriş*

2020-ci ilin gəlişi ilə əvvəllər görünməmiş qlobal çətinlik ortaya çıxmışdır: ÜST tərəfindən qlobal pandemiya kimi təsnif olunan novel koronavirus (COVID-19) xəstəliyinin yayılması. Nəticədə, mart ayının əvvəllərindən etibarən dünyanın hər yerində ciddi izolyasiya tədbirləri görülmüş, o cümlədən səyahət qadağaları tətbiq olunmuşdur.

Məhdudiyyətlərə baxmayaraq, "EU4Environment" layihəsinin icrası davam edir. Bütün rəsmi və qeyri-rəsmi görüş və müzakirələr artıq telekonfranslarla əvəz olunur.

Bu məqamda səyahət məhdudiyyətlərinin nə qədər davam edəcəyini, o cümlədən 2020-ci ilin sentyabr ayında üz-üzə görüş formatında keçirilməsi planlaşdırılan və "EU4Enviroment" layihəsinin icra statusunun nəzərdən keçiriləcəyi "EU4Environment" Regional İclasının təşkilinin mümkün olub-olmayacağını demək çətindir. Regional İclasın 2020-ci ilin sonlarına təxirə salınması ehtimalını proqnozlaşdırmaq üçün Şərq Tərəfdaşlığına daxil ola altı ölkədən hər birinin və icraçı qurumların iştirakı ilə virtual "EU4Environment" konsultasiyaları təşkil etmək təklif olunur.

## *Ölkələrarası virtual konsultasiyaların məqsədi*

- COVID-19 xəstəliyini nəzərə almaqla ölkədəki vəziyyəti, COVID-19 xəstəliyindən sonra bərpa planlarını və bu planların iqtisadiyyatın "yaşıllaşdırılması" prosesinə mümkün təsirlərini qiymətləndirmək;
- Hər bir Şərq Tərəfdaşlığı ölkəsində "EU4Environment" layihəsinin icra statusunu təqdim etmək;
- COVID-19 pandemiyasını nəzərə alaraq ilin qalan hissəsi üçün planları müzakirə etmək;
- 2020-ci ilin ikinci yarısında Regional İclasın təşkili ilə bağlı variantları və digər inzibati məsələləri müzakirə etmək.

## *İştirakçılar*

- Hər bir Şərq Tərəfdaşlığı ölkəsinin Ekologiya və İqtisadiyyat Nazirliklərindən "EU4Environment" layihəsi üzrə milli koordinatorlar;
- Milli koordinatorlar tərəfindən dəvət olunan seçilmiş iştirakçılar (məsələn, UNECE Espoo Konvensiyası çərçivəsində milli koordinatorlar);
- Avropa Komissiyası: Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Baş Direktorluğun (DG NEAR) nümayəndələri (Ətraf Mühit və İqlim Fəaliyyəti üzrə Baş Direktorluqlar da qoşula bilər) və Aİ-nin müvafiq nümayəndə heyətləri;
- İcraçı tərəfdaşlar (İƏİT, UNIDO, UNEP, UNECE);
- Milli fəaliyyət üzrə koordinatorlar;
- İcraçı tərəfdaşların koordinatorları fərdi əsaslarla dəvət oluna bilər (məsələn, ölkənin COVID-19 sonrası bərpa planına yardım üzrə BMT-nin rezident əlaqələndiriciləri, UNIDO-nun rezident əlaqələndiriciləri).

## *Müvafiq sənədlər*

- Gündəlik;
- İcraçı tərəfdaşlar tərəfindən "PowerPoint" proqramında hazırlanmış ölkədaxili vəziyyətlə bağlı ən son məlumatlar barədə təqdimat;
- Ölkə üzrə və regional iş planları;
- Logistika sənədi

# *Gündəliyin layihəsi*

| | | |
|---|---|---|
| 14:00-14:05<br>(5 dəq) | 1 | **İclasın sədri tərəfindən açılış nitqi**<br>o Cənab Maykl Rup, Avropa Komissiyası DG NEAR (təsdiq ediləcəkdir) |
| 14:05-14:15<br>(10 dəq) | 2 | **Ölkədaxili vəziyyətlə bağlı ən son məlumatlar**<br>o Milli koordinatorlar tərəfindən cari vəziyyət barədə, o cümlədən COVID-19 sonrası bərpa planları və onların iqtisadiyyatın "yaşıllaşdırılmasına" mümkün təsirləri barədə qısa təqdimatlar<br>• Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Şöbəsinin Beynəlxalq təşkilatlar və layihələr sektorunun müdiri vəzifəsini icra edən cənab Faiq Mütəllimov (təsdiq ediləcəkdir);<br>• İqtisadiyyat Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin direktor müavini Aytəkin Quluzadə (təsdiq ediləcəkdir); |
| 14:15-14:55<br>(40 dəq) | 3 | **"EU4Environment" layihəsi çərçivəsində keçmiş və davam edən tədbirlər, o cümlədən ilin qalan hissəsi üçün planlarla bağlı ən son məlumatlar**<br>o İcraçı tərəfdaşlar tərəfindən təqdimatlar (baxın: PPT proqramında hazırlanmış təqdimat)<br>• Nəticə 1 (UNEP və UNECE)<br>• Nəticə 2 (UNIDO)<br>• Nəticə 3 və 5.3 (İƏİT)<br>o Hər bir nəticədən sonra ölkələrin milli koordinatorlarının rəyləri: alternativ fəaliyyət rejimlərindən istifadənin əlverişliliyi (məsələn, virtual görüşlər, veb əsaslı təlimlər, yerli konsultantlardan istifadə) və tədbirlərin keçirilməsi, təxirə salınması, davam etdirilməsi. Konsultasiyadan sonra ikitərəfli əsaslarla daha ətraflı müzakirələr aparıla bilər. |
| 14:55-15:05<br>(10 dəq) | 4 | **"EU4Environment" Regional İclasına hazırlıq**<br>o İƏİT tərəfindən təklif olunan variantların təqdim olunması (baxın: PPT proqramında hazırlanmış təqdimat)<br>• 21 sentyabr 2020-ci il tarixində başlayan həftədə keçirilməsi planlaşdırılan Regional İclasın (22-23 sentyabr tarixlərində keçirilməsi təklif olunur) Zoom proqramı vasitəsilə virtual görüş formatında təşkil edilməsi (məsələn, iki günə bölünməklə 3 saatlıq səhər sessiyaları)<br>• Səyahət məhdudiyyətləri ləğv olunduqdan sonra, ehtimal ki noyabr-dekabr aylarında Ukraynanın Kiyev şəhərində üz-üzə görüş<br>o Ölkə nümayəndələrinin rəyləri |
| 15:05-15:15<br>(10 dəq) | 5 | **Digər layihələrlə məlumat mübadiləsi (Nəticə 5.2) və koordinasiya**<br>o İƏİT tərəfindən təqdimat (baxın: PPT proqramında hazırlanmış təqdimat)<br>o Ölkə nümayəndələrinin rəyləri |
| 15:15-15:25<br>(10 dəq) | 6 | **İnzibati məsələlərlə bağlı ən son məlumatlar (Nəticə 5.1)**<br>o İƏİT tərəfindən tədbirlərin qeydiyyatı, milli fəaliyyət üzrə koordinator və milli icraçı komitə barədə təqdimat<br>o Ölkə nümayəndələrinin rəyləri |
| 15:25-15:30<br>(5 dəq) | 7 | **Digər məsələlər və yekun**<br>o Cənab Maykl Rup, Avropa Komissiyası DG NEAR (təsdiq ediləcəkdir) |